# KİTABİ – DƏDƏ QORQUD ABİDƏSİNDƏ AİLƏ TƏRBİYƏSİ



*Yusif QAZIYEV,*
*pedaqogika üzrə elmlər doktoru,*
*Əməkdar müəllim*

*(Əvvəli ötən saylarımızda)*

Əgrəyin əsir düşməsini dəqiq öyrənmək üçün Səgrək gəlib anasından soruşur, anası ağlayır və Səgrəyin gedib qardaşını xilas etmək üçün ona xeyir-dua verir. Ananın dilindən söylənən kiçicik şeir oğuz ellərində böyük qardaşın ailədə nüfuzu, kiçiyin ona hörmət və itaəti haqqında dəbi parlaq əks etdirir:

«Ağzın üçün öləyim, oğul!
Dlim üçün öləyim, oğul!
Qarşı yatan qartağın,
Yıqılmış idi, yucaldı, axır!
Aqındılı görklü suyın
Soyğılmışdı, çağladı, axır!
Qaba ağacda tol-budağın
Qurımışdı yaşarıb gögərdi, axır!
Qalın Oğuz bəyləri izinə varsa, sən vargıl!
Ol yigidə yetdügində ağ-boz atın üzərindən yerə engil!
Əl qavşırıb, ol yigidə salam vergil!
Əlin opub boyunın quçğıl!
Qara tağım yüksəgi qartaş degil! (D – 258).

Səgərəyin atası dansıtmaq istəyir, deyir: «Yanlış xəbərdir oğul... Ağsaqqallı mən babanı ağlatmağıl! Qarıcıq olmuş ananı bozlatmağıl!» - dedi. Oğlan burada soylamış, aydır:

Üç yüz altmış altı alp ava binsə,
Qanlu keyik üzərinə qoğa qopsa,
Qardaşlu yigitlər qalqar – qopar olur.
Qardaşsız miskin yigit ənsəsinə
yumuruq toqunsa,
Ağlayubən dört yanına baqar olur,
Ala gözdən acı yaşın dönər olur...
Ala gözlü oğlunızı görüncə
Bəg baba, xatun ana, əsən qalun! – dedi (D – 159).

Oğuz İttifaqında övladlarla valideynlər arasındakı sevgi-məhəbbət ailə üzvləri arasında dərin köklərə bağlı idi. Oğuz elləri nəsil artımını müqəddəs tuturdular. Hər ailə öz övladı ilə fəxr edirdilər, övladlar – bacı və qardaşlar bir-birinə arxalanırdılar. Yuxarıdakı şeirdən aydın olur ki, atalar demişkən «tək əldən səs çıxmaz». Ailədə qardaş və bacıların olması ailənin xoşbəxtliyidir. Bu xoşbəxtlik həyat prosesində özünü göstərir.

Qardaşın qardaşa məhəbbəti iki qardaşı – Səgərək və Əgərəkin Əylincə qalasında necə görüşdükləri bizə məlum olur.

Qardaş məhəbbəti ucbatından Səgərək ata-anasının əlini öpdü. Sıçrayıb Qaracıq atına mindi, üç gün gecəli-gündüzlü at çapıb Dərəşəm sərhəddindən keçib qardaşının tutulduğu qoruğa gəldi. Qılıc çəkib altı qaravul kafiri yerə sərdi, atla fırlanıb dayları qovub, həmin qoruğa saldı.

Üç gün gecə-gündüz at çapıb yorğun olan Səgərək atın yüyənini biləyinə bağladı, yatıb yuxuya getdi.

Təkurə xəbər çatdı, o, altmış yaraqlı dəmir donlu kafiri oğlanın üzərinə göndərdi. Ayğır çəkib Səgərəyi oyatdı. Səgərək kafirləri qılıclayıb qalaya saldı. Yenəgedib yatdı. Sağ qalan kafirlər Təkurə xəbər çatdırdı. Bu dəfə Təkur 100 nəfər silahlı göndərdi. Ayğır yenə Səgərəyi oyatdı. Səgərək qalxıb kafirləri qılıclayıb qalaya doldurdu. O, yenə atını biləyinə bağlayıb yatdı. Bu dəfə at onun biləyindən açılıb qaçdı. Üçüncü dəfə Təkür oğlanın üzərinə 300 silahlı göndərmək istədi. Kafirlər etiraz etdilər. Təkür dedi: «Təpəgən köpini süsəgən yırtar»*, gedin o dustaq Əgrəgi aparın, onun köməyi ilə tutub öldürün. Əgrəg təklifi qəbul etdi. Onu zindandan çıxartdılar, saç-saqqalını ülgüclədilər. Bir at, bir qılınc verdilər, 3 00 kafiri də ona yoldaş kimi qoşdular. Bu 300 kafir kənarda durdu, Əgərək soruşdu: «Hanı o dəli igid?». Dedilər: «Odur, yatır». Əgərək dedi: «İndi mən gedim, əl-ayağını bağlayım, ondan sonra siz gələrsiz». O, atdan düşüb, yüyəni bir budağa ilişdirdi. Baxdı gördü ki, cavan on dörd gecəlik aya bənzər. Bu gözəl ala gözlü gənc puçur-puçur tərləyib yatır. Gələndən-gedəndən xəbəri yoxdur. Əgrək dolanıb, cavanın başı ucuna gəldi. Gördü ki, belində qopuzu var. Çıxarıb əlinə aldı. Əgrək qopuzdan başa düşdü ki, bu igid Qalın Oğuzdan gəlibdir. Ona görə səbr edib şeirlə onu qaldırmaq istədi və şeirin sonunda dedi:

«Qafil olma, görklü başın qaldır, yigit!
Ala gözün açgıl, yigit!
Qadir verən tatlu canın yuxu almış.
Yigit, qarusından qollarını bağlatmagil!
Ağ saqqallı babanı, qarıcıq ananı ağlatmagil!
Nə igidsən, Qalın Oğuz* elindən gələn yigit?
Yaradan həqqiçün, turi gəlgil!
Dört yanını kafər bağladı, bəllü bilgil! – dedi. (D – 267).

Oğlan gərnəşib ayağa durdu. Qılıncının dəstəyindən yapışdı ki, onu vura, gördü ki, əlində qopuz vardır. Ona görə onu vurmaq istəmədi. O Dədə Qorqudun qopuzuna hörmət əlaməti olaraq səbr etdi. Ancaq Səgərək qopuzu onun əlindən dartıb aldı və dedi:

«Alan sabah yerimdən turduğum qartaş içün,
Ağ-boz atlar yorultmışam qartaş içün.

Qələnüzə tutsaq varmıdır, kafər, degil mana?
Qara başım qurban olsun, kafər, sana! – dedi (D – 268).

Ulu qardaş Əgərək burada keçmişi yadına düşdü və dedi:

«Ağzın içün öləyim, qardaş!
Dilin üçün öləyib, qardaş!
Qaytabanım güdəndə sarvanımmısan?
Qaragücim güdəndə ılqıcımmısan?
Ağayılım güdəndə çobanımmısan?
Qulağımda şırşıyan naibimmisən?
Beşikdə qoyub getdiyim qardaşcığımmısan?
Yigit, degil mana!
Qara başım qurban olsun bu gün sana! – dedi.

Səgərək burada ulu qardaşına soyladı. Aydır:

Qara gərdun içində yol azsam, umum, - Allah!
Qaba ələm götürən xanımız, - Bayındır xan!
Qırış güni ögdin dəpər alpımız, - Salur Qazan!
Babam adın sorarsan, - Uşun qoca!
Mənim adım sorar olsan, - Səgrək!
Qardaşım varmış adı Əgrək! – dedi.

Bir dəxi soyladı, aydır:

Qaytabanda güdəndə sarvanınam.
Qaraquçın güdəndə ilqıcınam.
Beşikdə qoyub getdiyin qardaşınam, - dedi.

Ulu qardaş Əgrək burada soylamış, görəlim, necə soylamış, aydır:

Ağzın içun öləyim, qardaş!
Dilün içün öləyim, qardaş!
Ərmi oldın, yigitmi oldın, qardaş!
Qəribliğa qardaşın istəyi sənmi gəldin, qardaş? (D – 268,269).

Beləliklə, iki qardaş qalxıb qucaqlaşıb görüşdülər. Əgrək kiçik qardaşının boynunu öpdü. Səyrək isə böyük qardaşının əlini öpdü. Onlar atlarını mindilər, qara donlu kafirlərin üstünə at sürüb qılınc çaldılar, onları qovub qalaya saldılar. Sonra gəlib həmin qoruğa girdilər. Atları bayıra çıxardılar, qabaqlarına qatdılar, Dərəşam suyunu üzüb keçdilər. Gecəni gündüzə qatıb, Oğuz yurdunun sərhəddinə yetişdilər.

Uşun qocanın qapısına capar gəldi: «Muştuluq! Gözün aydın!

Oğlanlarının ikisi də birlikdə sağ-salamat gəldi!» - dedilər. Şadlıq, yemək-içmək oldu. Uşun qoca böyük oğlu üçün də gözəl gəlin gətirdi. İki qardaş bir-birinə sağdış oldu; atlarını çapıb gəlin otaqlarına getdilər. Öz muradlarına yetişdilər.

Beləliklə, qardaş məhəbbəti, qardaş sevgisi o qədər güclü idi ki, Sədərək gərdəyə daxil olan gəlini buraxıb, qardaşı Əgərəyi xilas etməyə gedir, qardaşla Vətənə qovuşurlar.

Oğuz igidlərinin bu şücaətləri mif deyildir. Bu canlı həyat səhnəsi idi. Oğuz düşüncəsi, Oğuz nümunəsi, Oğuz tərbiyəsinin təzahürü idi ki, eldə və ailədə sağlıq, xeyir-dua işləri el şənliyi ilə, ailə birliyi ilə həyata keçirilsin. Şənlik bütün eldə olsun.

**8. «Kitabi-Dədə Qorqud»da qohumluq məhəbbəti oğuzların birliyinin təminatçısı kimi mühüm yer tuturdu.**

Oğuz İttifaqında ailə komponentlərindən biri də qohumluq idi. Qohumluğun son ucu tayfa qohumluğunun formalaşmasına gətirib çıxarırdı.

Oğuz İttifaqında qohumluq, qohumpərəstlik mühüm yer tuturdu. Elə İttifaqın özündə qohumluq kök salmışdır. Oğuz, Daş Oğuz bəyləri, Üç Oq, Boz Oq tayfaları bir-birinə yaxın qohum olmuşlar. Bu qohumluq isə nəsildən-nəslə keçərək kök salmışdır. Təsadüfi deyildir ki, Xanlar xanı Bayındır xanın 2 qızı Oğuz İttifaqının adlı-sanlı bəyləri ilə evlənmişdir: Burla Xatın bəylər bəyi Qazan xanla, digər qızı (təəssüfki adı dastanda çəkilmir) isə Dirsə xanla lövlənmişlər. Bununla yanaşı Daş Oğuzun başçısı Aruz Qazan xanın dayısı idi. Amidlə Mərdin qalasını vurub yıxan, Dəmir yaylı Qıpçaq Məlikə qan qusduran, gələrək Qazanın qızını mərdliklə alan, Oğuzun ağsaqqallısı görəndə, o igidə «əhsən» deyən, al məxmər şalvarlı, atı mavi qotazlı Qaragünə oğlu Qarabudaq əmisi qızı ilə evlənmişdir.

Oğuz İttifaqında ailələrin qız verib, qız alma nəticəsində tayfalar formalaşmış. Tayfalar isə Oğuz İttifaqını, Oğuz ellərini yaratmışdır. Oğuz elləri uca keçmişlərini yaddaşlarında saxlayaraq millətin formalaşmasına şərait yaratmış, millətin qüsurlu olmamasına çalışmışlar. Bu deyilənlər Qazanın obrazında nəzərə çatdırılır.

Qazan bəy Tumanın qalasında dustaq olanda kafirlər onu alçaltmaq istəyirlər, ona təklif edirlər ki, onları (kafirləri) öysün, onu dustaqlıqdan buraxacaqlar. Qazan özünü və Oğuz elini sındırmır, əksinə öz kökünü tərifləyərək vətənpərvərlik şücaətini göstərdir. Qazan bəy şeirində adını çəkdiy hər heyvanı, quşu qoçaqlığına görə kökünə bənzədir və Oğuz ellərinin qürur və məğrur hissiyyətlərini həm özü yada salır, həm də kafirlərə bildirir və öz nəslinin cəsurluğu ilə öyünür və oğuz elinə bildirir ki, əsli, nəsli unutmaq olmaz.

KDQ-da əsli-nəsli unutmamaq, onu yada salmaq hər bir oğuzun borcu idi. Bu borcu isə onlar müxtəlif yollarla yerinə yetirirdilər. Oğuzlar tanımadıqları insanlarla qarşılaşanda onların Oğuz nəslində olub-olmamasını öyrənmək üçün əvvəlcə tanış olmaq istəyirdilər. Məsələn, dastan şeirlərində igidlər, ərənlər, qohum-qardaş bir-birinə rast gəlib bir-birini tanımayanda əsil-nəcabətlərini, el-obrazlarını, xan və sərkərdələrini soruşurlar. Tanışlıqda 3 cəhət vardır: birincisi, yaxın adam olduğunu bilmək, ikincisi, qeyri münasib adam, yəni yad adam olduğunu bilmək, üçüncüsü, düşmən adam olduğunu bilmək.

Dastanın VIII boyunda («Basat Təpəgözi öldürdigi boyı bəyan edər, xanım, hey!») deyilir ki, Təpəgöz onun gözünü tökmüş igiddən soruşur:

«Qalarda-qoparda yigit, yerin, nə yerdir?
Qarannu dün içində yol azsan, umun nədir?
Qaba aləm götürən xanınız kim qırış güni ögdin?
Ağ saqallu baban adı nədir?
Alp ərən ərdən adın yaşurmaq eyb olur,
Adın nədir, yigit, degil mana! – dedi» (D – 231).

Bu cür tanıma sorğu-sualını dastanın X boyu – Uşun Qoca oğlu Səgrək boyunda da görürük. Səgrək əlincə qalasının Təkürinin qoruğuna basqın edəndə, qala qaravulları xəbər aparırlar ki, basqın edən igid Oğuzdandır. Bu anda Təkur deyir ki, dustaq Əgərəgi aparın onun öhdəsindən o, gələ bilər. Əgərək gəlib görür ki, Səgərək yatır. Böyük qardaş tanımadığı kiçik qardaşına yuxarıda deyildiyi kimi şeirlə müraciət edir.

Bu adət – «tanışlıq» adəti dastanın XI boyunda («Saluq Qazan tutsaq olub oğlu Uruz çığardığı boy») daha maraqlıdır. Qazanın oğlu Uruz hərbi hissə ilə atasını Tuman qalasında dustaqlıqdan azad etməyə gedəndə Təkura xəbər çatır ki, düşmən Tuman qalasının astanasındadır. Bu zaman Təkur deyir ki, Qazan, qarşıdan gələn hücumun qarşısını al, səni dustaqlıqdan azad edək. Qazan razılaşır, ona hərbi zirehli paltar geydirirlər.

________

*(Davamı var)*